1_Layout 1 15.02.2019 15:31 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

İlham ƏLİYEV

ƏSGƏR

№ 03 (544)

16 fevral 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Beyləqan rayonuna səfəri

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonuna səfər edib. AZƏRTAC-ın səfərlə bağlı hazırladığı materialı ixtisarla təqdim edirik.***

AZƏRTAC xəbər verir ki, fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonunda səfərdə olub.

Dövlətimizin başçısı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Beyləqan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev rayonda görülən işlər haqqında dövlətimizin başçısına məlumat verib.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan rayonuna səfəri çərçivəsində Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına yolun göstəriciləri barədə məlumat verib.

Məlumat verilib ki, bu yol 26 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun tikintisinə dövlət büdcəsinin investisiya xərclərindən 14,6 milyon manat ayrılıb. Uzunluğu 20,5 kilometr olan yolun hərəkət hissəsinin eni 6-14 metrdir. İki və dörd hərəkət zolaqlı yol yüksək keyfiyyətlə tikilib. Yol boyunca üç avtobus dayanacağı, suötürücü borular, 78 yol nişanı və göstərici lövhələr quraşdırılıb. Uzunluğu 73 min metr olan yol-cizgi xətləri çəkilib, dörd körpü əsaslı təmir edilib.

Dövlətimizin başçısı Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsib.

Dövlətimizin başçısı yol inşaatçıları ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

Gənclər və idman naziri Azad Rəhimov Beyləqan Olimpiya İdman Kompleksində yaradılan şərait barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verilib.

Bildirilib ki, kompleksin tikintisinə 2018-ci ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 17,5 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə istifadəyə verilən sayca 45-ci Olimpiya İdman Kompleksidir.



Ümumi ərazisi 2,6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Beyləqan Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılarla və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.

Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak edib.

Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsib.

Yenidənqurmadan sonra muzeydə yaradılan şəraitlə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verilib ki, bu mədəniyyət ocağı 1981-ci ildə yaradılıb. Muzeyin əvvəlki binası uzun illər istismar olunduğundan fiziki aşınmaya məruz qalmışdı. Bundan başqa, muzeyin ekspozisiyası SSRİ dövrünün tərtibatı əsasında qurulmuşdu. Ötən il yenidən inşa edilən ikimərtəbəli binanın ümumi sahəsi 1050 kvadratmetrdir. Muzeydə ekspozisiya zalı, iki xidməti otaq, bir fond otağı, 60 yerlik konfrans zalı, 12 yerlik dəyirmi masa zalı, bir texniki otaq var.

Muzeydə həm ölkəmizin, həm də Beyləqanın tarixini əks etdirən eksponatlar toplanıb.

Şanlı tariximizin gənclərə dərindən öyrədilməsi və gələcək nəsillərə çatdırılması baxımından belə muzeylərin müstəsna əhəmiyyəti var. Bu baxımdan son dövrlərdə Azərbaycanda yeni muzeylərin inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması işi geniş vüsət alıb. Belə layihələrin icrası ölkəmizin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün müstəsna əhəmiyyətə malikdir.

Sonra Prezident İlham Əliyev muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonunda yenidən qurulan 110/35/10 kV-luq “Beyləqan-1” yarımstansiyasının açılışında iştirak edib.

Prezident İlham Əliyev yarımstansiyanı işə salıb.

“Azərişıq” ASC-nin sədri səlahiyyətlərini icra edən Vüqar Əhmədov dövlətimizin başçısına məlumat verib ki, Beyləqan Elektrik Şəbəkəsində 22 min 480 abonent mövcuddur. Onlardan 20 min 728-i əhali, 1752-si qeyri-əhali kateqoriyasına aiddir. Rayonun elektrik enerjisi ilə təminatının və etibarlılığın artırılması məqsədilə mövcud 110/35/10 kV-luq “Beyləqan-1” yarımstansiyası tam yenidən qurulub, hər biri 25 MVA gücünə malik iki transformator quraşdırılaraq, 15 MVA yeni güc yaradılıb. Yenidən qurulmuş yarımstansiya vasitəsilə Beyləqan şəhərində, Mayak və Yuxarı Aran qəsəbələrində yaşayan 28 min nəfər əhalinin, eyni zamanda, şəhərdəki ictimai, sosial-mədəni, idman, səhiyyə obyektlərinin elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Həmçinin, rayon ərazisində olan əkinçilik, pambıqçılıq və digər təsərrüfatların enerji təminatı tam ödəniləcək.

Yarımstansiyanın inzibati binasında işçilər üçün iş otaqları, yardımçı və texniki otaqlar yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıqlar salınıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş “N” saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport veriblər.

Dövlətimizin başçısına məlumat verilib ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla, 48 mənzilin tikintisi davam etdirilir.

Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olub.

## Hərbi qulluqçularımız Gənclər Gününə həsr olunmuş respublika toplantısında iştirak ediblər

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin mənəvi-psixoloji hazırlıq şöbəsində baş zabit mayor Anar Qurbanov, Daxili Qoşunların 99713 və 67987 saylı hərbi hissələrindən, ümumilikdə, 80 nəfər iştirak ediblər.

Tədbirdə ilk olaraq Gənclər Günü münasibətilə Prezident İlham Əliyevin təbrikləri çatdırılıb, bu günün Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə təsis edildiyi xatırlanıb, Milli Liderin gənclərə həmişə böyük sevgi və qayğı ilə yanaşdığı vurğulanıb. Qeyd olunub ki, Azərbaycanda müasir gənclər siyasəti 1994-cü ildən başlanılıb. Həmin il Ulu Öndər o zaman mövcud olan bütün çətinliklərə baxmayaraq, Gənclər və İdman Nazirliyini yaratdı və bu da gənclər üçün yeni imkanlar açdı. Daha sonra ölkəmizdə gənclərlə bağlı dövlət proqramları qəbul olundu, müxtəlif mötəbər beynəlxalq tədbirlər keçirildi, həmçinin, bölgələrdə Gənclər mərkəzləri, Olimpiya İdman kompleksləri fəaliyyət göstərməyə başladı.





Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğu vurğulanan toplantıda dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxunub, onların cəmiyyətin fəal üzvləri olduğunu qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. “Haqlı olaraq gənclə - rimizlə fəxr edə bilərik”, - deyən dövlətimizin başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayıb və qeyd edib ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır.

Tədbirdə Prezident İlham Əliyev Azərbaycanın son illərdə qazandığı uğurlardan və sosial-iqtisadi inkişafından danışaraq, ölkəmizin beynəlxalq nüfuzunun artdığını vurğulayıb.

Çıxışının sonunda Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan edərək onlara uğurlar arzulayıb.

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olunub.

Daha sonra Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri Məryəm Məcidova, Qarabağ qazisi Kamil Musəvi, Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, “Human Foundation”un təsisçisi Fəridə Əsgərzadə, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Regional İnkişaf İctimai Birliyinin nümayəndəsi Aydan Ramazanova, Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, tələbə gənclər təşkilatının sədri Ayxan Hüseynli, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi Ülkər Əsədova, şəhid polkovnik-leytenant Raqif Orucovun oğlu Aqşin Oruclu, “ASAN” könüllüsü Emilya Bayramova çıxış ediblər.

Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirilib.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə yekunlaşıb.

**P.S. Qeyd edək ki, Daxili Qoşunlar Komandanının müavini-Şəxsi heyət üzrə İdarə rəisinin müvafiq göstərişinə əsasən, 2 fevral - Gənclər Günü ilə əlaqədar olaraq Daxili Qoşunların hərbi hissələrində də tədbirlər təşkil olunub.**

**Bundan əlavə, Daxili Qoşunların veteranları - Telman Aslanov və Səfxan Bayramov 25031 saylı hərbi hissədə tədris bölüklərinin şəxsi heyətilə görüşüblər. Tədbirdə Gənclər Gününün ictimai-siyasi mahiyyəti haqqında hərbi qulluqçulara geniş məlumat verilib.**

**baş leytenant**
**Xədicə Hacızadə**

## BAŞ İDARƏDƏ GÖRÜŞ

Fevralın 14-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri xanım Aymone Sesseranı qəbul edib.



Xanım Aymone Sesseranı tərcüməçi qismində BQXK-nın Azərbaycandakı Nümayəndəliyində İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri İlahə Hüseynova müşayiət edirdi.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov səmimi salamlarını qonağa çatdıraraq, son illərdə Daxili İşlər Nazirliyi və onun tərkib hissəsi olan Daxili Qoşunlarla BQXK-nın Azərbaycandakı Nümayəndəliyi arasında əlaqələrin çox uğurla davam etdirildiyini bildirib. O, 2003-cü ildən indiyədək BQXK-nın xətti ilə polis əməkdaşları, həmçinin, Daxili Qoşunların hərbi qulluqçuları üçün "Beynəlxalq humanitar hüquq”, “Beynəlxalq insan haqları hüququ” və “Polis fəaliyyətinin beynəlxalq standartları” mövzularında çox sayda kursun keçirilməsindən, həmin tədbirlərdə yüzlərlə polis əməkdaşının və hərbi qulluqçunun iştirak etməsindən danışıb.

Daxili Qoşunların Komandanı icra olunan kurs və seminarların polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları üçün faydalı olduğunu qeyd edərək, bu fəaliyyətlərin gələcəkdə də davam etdirilməsinə böyük maraq olduğunu hörmətli qonağın diqqətinə çatdırıb.

Xanım Aymone Sessera səmimi qəbula və BQXK ilə əməkdaşlığı yüksək qiymətləndirdiyinə görə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanına dərin təşəkkürünü ifadə edib. Hörmətli qonaq hal-hazırda həm Daxili İşlər Nazirliyi, həm də onun tərkib hissəsi olan Daxili Qoşunlarla BQXK-nın Azərbaycandakı Nümayəndəliyi arasında əməkdaşlıq münasibətlərinin çox uğurla davam etməsinin təqdirəlayiq olduğunu qeyd edərək, münasibətlərin gələcəkdə də eyni şəkildə davam etməsinə əminliyini ifadə edib. Xanım Sessera BQXK-nın münaqişə zonalarında həyata keçirdiyi neytral fəaliyyəti barədə də geniş məlumat verib.

Görüşün sonunda qonağa hədiyyə təqdim olunub və xatirə şəkli çəkdirilib.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

2_Layout 1 15.02.2019 15:08 Page 1



# KİNOLOQLARIMIZ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI YERİNƏ YETİRMƏYƏ HAZIRDIR

Daxili Qoşunların qarşısına qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün xidməti heyvanlardan, o cümlədən, xidməti itlərdən geniş istifadə olunur.



Xidməti itlərin yetişdirilməsi, təlimi, müxtəlif tapşırıqların yerinə yetirilməsi üzrə istifadə olunması, sağlamlıqlarının qorunub saxlanılması, yemlənməsi və bəslənməsi haqqında daha geniş məlumatlar əldə etmək məqsədilə qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsində oldum. Onu da qeyd edim ki, məntəqənin ərazisinin təmizliyi və gigiyena qaydalarına ciddi riayət olunması məntəqə rəisinin və burada xidmət aparan hər bir hərbi qulluqçunun daha çox diqqət yetirdiyi məsələlərdəndir.

Məntəqə rəisi kapitan Pərviz Əliyev məntəqənin fəaliyyəti barədə ətraflı məlumat verərək, xidməti itlərin yetişdirilməsinin və xidmətdə tətbiq olunmasının müvafiq hüquqi-normativ sənədlər əsasında yerinə yetirildiyini dedi: “Buraya Daxili İşlər Nazirinin müvafiq əmri ilə təsdiq edilmiş “DİN-in Daxili Qoşunlarında xidməti itlərin yetişdirilməsi və xidmətdə tətbiq edilməsi qaydaları haqqında Təlimat” və bu təlimatın tələblərinə uyğun DQBİ-nin Qərargahı tərəfindən hazırlanmış “Daxili Qoşunlarda xidməti itlərin saxlanılması və taktiki tətbiqinə dair metodiki vəsait” daxildir”.

Kapitan P.Əliyev, həmçinin, Xidməti itlərin yetişdirmə məntə-qəsində hal-hazırda müxtəlif cinslərə mənsub olan 31 baş xidməti itin, o cümlədən, 6 baş küçüyün saxlanıldığını və onlardan müxtəlif profillər üzrə istifadə edildiyini qeyd etdi: “Məntəqədə olan xidməti itlərin cins tərkibi müxtəlifdir. Belə ki, onlardan 23 baş alman avçarkası, 8 baş isə Belçika malinuası cinsinə mənsubdur. Onu da qeyd edim ki, yaşı 5 ay yarımlıq olan 6 baş küçük də məhz Belçika malinuası cinsinə aiddir. Məntəqədə olan xidməti itlər müxtəlif istiqamətlərdə - post-patrul xidmətinin aparılması, qarovul və mühafizə xidməti, kütləvi iğtişaşların qarşısının alınması, silahlı cinayətkarların axtarılması və tutulması, partlayıcı maddələrin və silah-sursatın tapılması üzrə hazırlanaraq təlimlər keçirilir və zəruri hallarda xidmətdə geniş istifadə olunur”.

Günün nizam qaydalarına uyğun gündəlik olaraq xidməti itlərə iki dəfə qulluq göstərilir. Göstərilən qulluğa əsasən xidməti heyvanların yemlənməsi, suvarılması, gəzintinin təşkil olunması, daranması və s. daxildir. Qeyd edək ki, xidməti heyvanların sağlamlığının qorunması da vacib şərtdir. Bu baxımdan məntəqənin baytar həkimi tərəfindən xidməti itlərin sağlamlığı daim nəzarətdə saxlanılaraq, müxtəlif profilaktik baytarlıq tədbirləri həyata keçirilir.



Bundan əlavə, 67987 saylı hərbi hissənin tibb xidməti tərəfindən müvafiq plana əsasən, həftədə bir dəfə məntəqənin ərazisində ümumi profilaktik-gigiyenik tədbirlər görülür. Bu tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsi xidməti itlərin qorunub saxlanılması və həyatı baxımından son dərəcə vacib amillərdəndir.

Xidməti itlər tərəfindən qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi onlarla təşkil olunub keçirilən təlimlərin keyfiyyətindən birbaşa asılıdır. Bu baxımdan təlimçilərin bilik səviyyəsinin yüksək olması və praktiki təcrübəyə yiyələnmələri başlıca şərtdir.

Hazırlanmış müvafiq proqrama əsasən, təlimçilərin biliklərinin artırılması məqsədilə ixtisas hazırlığı üzrə məşğələlər, bir qayda olaraq, məntəqə rəisi tərəfindən keçirilir, əsasən, ümumi və xüsusi təlimin keçirilməsinin metodikası tədris olunur. Xidməti itlərin təlimi isə məntəqə rəisinin rəhbərliyi altında manqa komandiri və təlimçilər tərəfindən praktik olaraq təşkil olunub keçirilir. Sonda təlimçilərdən ayda bir dəfə məqbullar qəbul edilərək, onların xidməti itlərlə birgə fəaliyyəti qiymətləndirilir.

Məlumat üçün qeyd edək ki, 67987 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstələrinin heyvan təlimçiləri də ixtisas hazırlığı üzrə bilik və bacarıqlarını artırmaq məqsədilə məntəqədə keçirilən məşğələlərə cəlb olunurlar. Bununla yanaşı, Daxili Qoşunların Baş İdarəsinin Qərargahı tərəfindən məntəqədə xidmətə yeni cəlb olunan heyvan təlimçiləri ilə mütəxəssis hazırlığı kursu təşkil olunur. Sonda kursu bitirən hərbi qulluqçulardan məqbullar qəbul edilərək, onlara şəhadətnamə verilir.



Məntəqə rəisi keçirilən nəzəri və praktiki məşğələlərdə, eləcə də xidməti fəaliyyəti və nizam-intizamı ilə fərqlənən hərbi qulluqçuların adlarını da qeyd etdi. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları - baş çavuş Elmir Quliyev, əsgərlər Tural Alıyev, Tacəddin Şahmarlı və Ramil İsrafilov məhz belələrindəndir.

Müddətdən artıq xidmət edən əsgər Alıyev Tural Babacan oğlu 1991-ci il iyulun 27-də Bakı şəhərində anadan olub. 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ilin aprel ayından Daxili Qoşunların Xidməti itlərin yetişdirmə məntəqəsində heyvan təlimçisi kimi müddətdən artıq həqiqi hərbi xidmətini davam etdirməyə başlayıb. Nizam-intizamlı olması ilə yanaşı, daim öz üzərində çalışan Turalın bilik və bacarığı nəzərə alınaraq, təlimə yeni cəlb olunan küçüklərin öyrədilməsi məhz ona həvalə olunub.

Məntəqə rəisi tərəfindən nümunəvi hərbi qulluqçu kimi müsbət xarakterizə olunan əsgər T.Alıyev, hələ uşaq yaşlarından kinoloq peşəsini sevdiyini deyir: **“Heyvanları, xüsusilə də xidməti itləri çox sevirəm. Gördüyünüz bu küçüklərə qulluq göstərmək, təlim keçmək və xidməti istifadə üçün hazırlamaq olduqca maraqlıdır. Heyvan təlimçisi kimi əldə olunan müsbət nəticəni gördükdə isə, təbii ki, buna çox sevinirəm”**.

Son olaraq qeyd edə bilərik ki, məntəqədə olan yüksək nizam-intizamı, heyvan təlimçilərinin öz peşələrinə olan böyük marağını və təlimlərə ciddi münasibət bəsləmələrini görərək yalnız bir məsələ haqqında düşünməli olursan: **kinoloqlarımız verilən tapşırıqları yerinə yetirməyə həmişə hazırdırlar**.

**kapitan Anar Əhmədov**

# 99713 SAYLI HƏRBİ HİSSƏNİN AVTOMOBİL VƏ ZİREHLİ TEXNİKA XİDMƏTİNİN FƏALİYYƏTİ “ƏLA” QİYMƏTLƏNDİRİLİB

***Daxili Qoşunların döyüş hazırlığının daima yüksək səviyyədə qorunub saxlanılmasında mühüm sahələrdən biri də avtomobil və zirehli texnika xidmətidir. Şəxsi heyətin, habelə xüsusi yüklərin dislokasiya yerinə vaxtlı-vaxtında çatdırılmasında xidmətin rolu böyükdür. Bu baxımdan, 99713 saylı hərbi hissənin avtomobil və zirehli texnika xidməti üzərinə düşən vəzifələri müvəffəqiyyətlə yerinə yetirir.***



Xidmətin rəisi mayor Azər Şabanov nəqliyyat vasitələrinin daima saz vəziyyətdə saxlanılması üçün görülən işlərdən danışarkən bildirdi ki, hər gün səhər sürücü heyəti texnikin rəhbərliyi altında xüsusi geyim forması ilə parka gəlir. Parkın girişində xidmət rəisi və park növbətçisi tərəfindən şəxsi heyətin sayı, tərtib olunmuş planlar və hər bir sürücünün tapşırığı yoxlanılır, gündəlik, həmçinin, aylıq təhlükəsizlik qaydaları haqqında tərtib olunmuş kitablarla tanışlıqdan sonra imza atılır. Şəxsi heyət verilmiş tapşırıqlara əsasən fəaliyyətə başlayır.

Avtomobil xəttə çıxmazdan öncə avtomobil parkının nəzarət-texniki məntəqəsində maşın rəhbərinin, sürücünün sənədlərinin mövcudluğu, yol vərəqəsində müvafiq qeydlərin aparılması, eləcə də nəqliyyat vasitələrinin texniki vəziyyəti yoxlanılır, park növbətçisi tərəfindən xəttə çıxılması üçün icazə verilir. Xəttən qayıtdıqdan sonra parkın girişində təyin olunmuş yerdə avtomobil saxlanılır, maşın böyüyü maşını nəzarət-texniki məntəqəsi rəisinə təqdim edir. Nəzarət-texniki məntəqəsinin rəisi avtomobilin sazlığını yoxlayır, sürücü tərəfindən nəqliyyat vasitəsinə texniki qulluq göstərilir, parkda təyin olunmuş saxlancda saxlanılır.

Görülən gündəlik işlərdən başqa, nəqliyyat vasitələrinə yay və qış mövsümlərində texniki qulluq göstərilir. Bu zaman avtomobillərdə təmir işləri aparılır, xarici görünüşləri qaydaya salınır. Avtomobillər sürücü alətləri ilə tam təmin edilir.

Xidmət rəisi nəqliyyat vasitələri təhkim olunmuş hərbi qulluqçuların nəzəri biliklərinin artırılmasının da daima ciddi nəzarətdə saxlanıldığını söylədi. Bu məqsədlə, hərbi qulluqçularla mütəmadi olaraq nəzəri məşğələlər keçirilir. Məşğələlərdə gündəlik texniki qulluğun keçirilməsi, avtomobillərin hissə və mexanizmlərinin iş prinsipləri, düzgün istismarı, o cümlədən, düzgün idarə olunması, şəxsi heyətin və xüsusi yüklərin daşınması zamanı sürücünün vəzifələri, təhlükəsizlik qaydalarına ciddi əməl edilməsi tədris olunur.

Məlumdur ki, Daxili Qoşunların Baş İdarəsinin Maddi-texiki təminat İdarəsində avtomobil və zirehli texnika şöbəsi tərəfindən hər il qoşunların istifadəsində olan avtomobil və zirehli texnikalara illik texniki baxış keçirilir. Baxış zamanı nəqliyyat vasitələrinin texniki vəziyyəti, qorunub saxlanılması, texniki qulluğun, istismarın düzgün təşkili, vəzifəli şəxslər tərəfindən texniki baxış normalarının yerinə yetirilməsi, yanacaq-sürtkü materiallarının, ehtiyat hissələrin hesabatı, maddi-texniki vasitələrin sərfi qaydalarının icrası yoxlanılır. Məlumat üçün bildirək ki, hərbi hissənin avtomobil və zirehli texnika xidməti 2018-ci il üçün keçirilmiş texniki baxış zamanı “əla” qiymətləndirilib.

Bir sözlə, hərbi hissədə yüksək döyüş qabiliyyətinin daha da artırılması istiqamətində avtomobil və zirehli texnika xidməti qarşıya qoyulmuş bütün tapşırıqları uğurla icra edir.

**baş leytenant Xədicə Hacızadə**

## Nümunəvi xidmət

***Qəzetimizin hər sayında Daxili Qoşunların hərbi hissələrində xidmət edən nümunəvi hərbi qulluqçular barədə materiallar dərc etmişik. Bu dəfə də oxucularımızı 17072 və 67987 saylı hərbi hissələrin intizamı, mənəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçuları ilə tanış edirik.***



17072 saylı hərbi hissənin hərbi qulluqçusu **çavuş Beysat Ağaverdiyev** 1989-cu il mayın 24-də Şəki rayonunun Turan qəsəbəsində anadan olub. 2006-cı ildə Turan qəsəbə orta məktəbini bitirib. 2007-2009-cu illərdə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində xidmət edib. Hazırda Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində snayper vəzifəsində xidmət edir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Hərbi qulluqçumuz hər zaman üzərində çalışır, hərbi biliyini artırmağa səy göstərir. Snayper kimi təhkim edilən silahın sirlərinə dərindən yiyələnmək üçün əzmlə çalışır. Bunun nəticəsidir ki, 2017-ci ildə xüsusi təyinatlı dəstələr arasında keçirilən snayper yarışları üzrə 1-ci yerə layiq görülüb.

Çavuş B.Ağaverdiyevin əsas məramı Vətənə şərəf və ləyaqətlə xidmət etməkdir. Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur duyduğunu bildirən hərbi qulluqçumuz 2018-ci ildə hərbi qulluqçuların peşəkarlıq rəmzi olan zoğalı beret uğrunda keçirilən yarışlarda iştirak edib və sınaqlardan uğurla keçərək zoğalı bereti daşımaq hüququ qazanıb.

Digər nümunəvi hərbi qulluçumuz isə 67987 saylı hərbi hissədə xidmət edən **çavuş Aynur Heydərovadır.** O, 1992-ci il avqustun 17-də Balakən rayonunda anadan olub. Hələ uşaq yaşlarından hərbçi




sənətinə böyük maraq göstərib. 2010-2014-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alıb. İxtisasca basketbolçudur.

2015-ci ilin may ayından Daxili Qoşunların sıralarında xidmət etməyə başlayıb. İlk olaraq 67987 saylı hərbi hissənin mühəndis xidmətində kargüzar vəzifəsində xidmət etsə də, hazırda xüsusi vasitələrin tətbiqi dəstəsində baş atıcı vəzifəsindədir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. 2018-ci ilin yekun yoxlamasını “əla” qiymətlə başa vurub.

Dəstənin komandiri polkovnik-leytenant Vüqar Şirinov da çavuş Aynur Heydərovanın xidmətini yüksək qiymətləndirərək bildirdi ki, yüksək nizam-intizama, peşəkarlıq, dözümlülük kimi xüsusiyyətləri xas olan və bununla da şəxsi nümunə olmağı bacaran Aynur eyni zamanda keçirilən təlim və məşğələlər zamanı da fəallığı ilə seçilir. Zərif cinsin nümayəndəsi olmasına baxmayaraq o, təlimlərdə istənilən nəticəni əldə etmək üçün fərdi qaydada öz üzərində daima çalışır, fiziki hazırlığını daha da təkmilləşdirir. Böyük ruh yüksəkliyi ilə məşğələlərə qatılan xanım hərbi qulluqçumuzun göstəriciləri də müəyyən edilmiş normativlərə cavab verir, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Aynurun ən böyük arzusu isə gələcəkdə zabit kimi qoşunların sıralarında xidmətini davam etdirməkdir. Bu baxımdan daim öz üzərində çalışır, bilik və bacarığını artırmağa səy göstərir.

Biz də öz növbəmizdə hərbi qulluqçularımıza gələcək xidmətlərində uğurlar arzulayırıq.

3_Layout 1 15.02.2019 15:12 Page 1



# MÜBARİZ İBRAHİMOV AZƏRBAYCANIN QƏHRƏMANLIQ RƏMZİDİR

***Vətən qaladır. Əzəmətli, vüqarlı qala. Qalanı ucalıq mərtəbəsində tutan isə sal qaya kimi düşmənin qarşısını kəsən oğullardır. Vətənimizin igid oğullarından biri də Azərbaycanın Milli Qəhrəmanı şəhid Mübariz İbrahimovdur.***

Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. O, hələ uşaq yaşlarından torpağına, Vətəninə, xalqına bağlılığı ilə həmyaşıdlarından fərqlənirdi. Elə buna görə də orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xidmətə çağırılır və xidmətini Daxili Qoşunların 12318 saylı hərbi hissəsində keçir. Daxili Qoşunlarda xidmət etdiyi müddət onun Vətənə layiqli, əsl hərbçi kimi püxtələşməsində böyük rol oynayır. Xidmətini başa vurduqdan sonra o, Daxili Qoşunlarda xidmətini davam etdirə bilərdi. Lakin Mübarizin başqa arzuları var idi. Düşmənlə üz-üzə xidmət etmək, **"şəhid olanadək şərəfsizlərin üzərinə yerimək"**.

Bu arzusu onu bir an da olsun tək qoymurdu. 2009-cu ilin avqust ayında, valideynlərinin etirazlarına baxmayaraq, yenidən hərbi xidmətə qayıdır. 2010-cu ilin aprel ayından iyul ayınadək Tərtər rayonunda ön cəbhədə yerləşən hərbi hissələrdən birində taqım komandirinin müavini vəzifəsində xidmət edir. Xidmətdə olduğu bir neçə ay ərzində Mübariz sanki hər an plan cızır, düşməni məhv etmək istəyilə alışıb yanırdı.

18 iyun 2010-cu il tarixində gecə vaxtı gizir Mübariz İbrahimov təmas xəttinin qarşı tərəfində mövqe tutmuş Ermənistan Silahlı Qüvvələrinin çox sayda əsgər və zabitini məhv edir. 5 saat təkbətək döyüşdən sonra qəhrəmancasına şəhid olur. Cəsədi 141 gündən sonra Vətənə qaytarılan şəhidimiz İkinci Fəxri Xiyabanda dəfn olunub.

2010-cu il noyabrın 7-də işğalçı ermənilərlə döyüşdə böyük şücaət göstərərək qəhrəmanlıqla həlak olmuş Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovla keçirilən vida mərasimində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev iştirak etmişdir. Bu günün çox kədərli, eyni zamanda, çox şərəfli bir gün olduğunu vurğulayan Ali Baş Komandan Mübarizi bütün gənclərimizə əsl qəhrəmanlıq nümunəsi kimi göstərərək bil-




dirmişdir ki, o, qəhrəmanlığı ilə düşmənə sübut etdi ki, Azərbaycan xalqı, Azərbaycan gəncləri Vətən uğrunda canlarından keçməyə hazırdırlar: **"Təmas xəttində hər bir itki bizi sarsıdır, hər bir itki bizim üçün ağırdır. Ancaq biz müharibə şəraitində yaşayırıq. Əminəm ki, şəhidimizin əziz xatirəsi Azərbaycan xalqının qəlbindən heç vaxt silinməyəcəkdir. Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi qəhrəmanlar vardır. Onlar Ali Baş Komandanın əmrini gözləyirlər. Onlar öz doğma torpaqlarını azad etmək üçün hər an hazırdırlar. Gün gələcək, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir"**.

"Şəhidliyin, qəhrəmanlığın məkanı, zamanı olmur", deyirlər. Şəhidlər xalqın kimliyini, mənliyini qoruyub işıqlı sabahımıza boylanan azadlıq pöhrələri, yüksəlişə, ucalığa can atan könül dünyamızdır. Xalq da, Vətən də hər zaman öz şəhidləri ilə fəxr edir, Mübariz İbrahimovla fəxr etdiyi kimi. Üstündən illər keçsə də, Mübariz həmişə şərəflə yad edilir, bu gün də onun haqqında yazılır, danışılır, müqəddəs xatirəsi qürurla anılır.

Daxili Qoşunların hərbi qulluqçuları da şəhidlərimizi, o cümlədən, Mübarizi hər zaman ehtiramla anır, doğum günündə məzarını ziyarət edirlər.

Bu dəfə də fevralın 7-də Daxili Qoşunların 99713 və 67987 saylı hərbi hissələrinin hərbi qulluqçuları şəhidimizin məzarını ziyarət ediblər. Onlar II Fəxri Xiyabana gələrək məzarı üzərinə tər qərənfillər düzüblər. Mübarizin şücaəti haqqında xidmətə yeni qəbul olunan əsgərlərə məlumat verilib. Ürəyi Vətən sevgisilə alışıb yanan, illər öncə Daxili Qoşunların müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu olmuş qəhrəmanımızın keçdiyi döyüş yolunun müasir gənclərə nümunə olduğu vurğulanıb. Cəsurluq, igidlik, mərdlik nümayiş etdirən Mübariz İbrahimovun Azərbaycanın qəhrəmanlıq rəmzi olduğu bildirilib.



**Fəxrlə qeyd olunub ki, günü-gündən qüvvətlənən Azərbaycan Ordusunun Mübariz kimi oğulları çoxdur və onların hər birinin qəlbi Mübariz kimi Vətənə sevgi, məhəbbət hissləri ilə döyünür. Gün gələcək, bu oğullar həm Mübarizin, həm də onun kimi neçə-neçə şəhid oğullarımızın qisasını alacaqlar.**

**baş leytenant Xədicə Hacızadə**

# TARİXDƏ ŞƏRƏFLİ İZİMİZ İFTİXARIMIZDIR

Tarix xalqların keçmişi, yaşayışı, mədəniyyəti, coğrafi yerləri, adət-ənənələri barədə məlumatları özündə birləşdirən və günümüzə gəlib çatmış qiymətli mənbələrdir. Bəziləri tarixdə riyakar, mənfur, yalançı, bəziləri isə igid, qəhrəman, qonaqpərvər və humanist xalq kimi yaddaşlara yazılıb.



Hər bir xalqın keçmişinin yaxşı və ya pis anılması onun tarixi inkişaf yolunda qonşu xalqlara qarşı münasibətilə xarakterizə olunur.

Mənfur qonşularımız ermənilər xalqımıza qarşı törətdikləri iyrənc əməllərlə, vəhşiliklərlə vandalizm tarixində yeni səhifələr açdılar. Onlar əliyalın, dinc, silahsız və ən əsası günahsız insanlara - yaşlı, cavan, uşaq, qadın, fərq qoymadan, gözlərini belə qırpmadan işgəncə verib, əzabla öldürdülər. Tarixi abidələrimizi yerlə yeksan etdilər. Cənnətməkan Qarabağımızı yaşanılmaz bir xarabalığa çevirdilər. Ermənilər haqqında dünya tarixçilərinin, yazarlarının və dahilərinin dedikləri də bir daha təsdiq edir ki, onlar bəşəriyyətdə özlərinə yer tapa bilməyən şər xislətli qövmdürlər. Erməni hiyləsinə qurban olmasınlar deyə müəlliflər bunu ən sərt sözlərlə dünyaya car çəkiblər:

**"Ermənilər dünyanın ən pis ağdərili nökərləridir. Onlar şərəfsizdirlər. Onların oğruluqları çox məşhurdur. Onlar yalnız qorxu və kötək altında sakit olurlar"**.

Adam Mets (İsveç səyyahı).

**"Erməni yer üzünün ilanı, insanlığın düşmənidir"**.

Sədi Şirazi (Məhşur fars şairi).

Keçmişi minilliklərə dayanan xalqımız hər zaman öz mədəniyyəti, igidliyi, humanistliyi və tolerantlığı ilə qonşu xalqları qısqanmağa məcbur edib. Ancaq, bütün tarix boyu onları cəlb edən, göz dikdikləri təkcə mədəniyyətimiz deyil, eyni zamanda, zəngin yeraltı və yerüstü sərvətlərimiz olub. Dəfələrlə acgöz qonşuların hücumuna məruz qalmış, illərlə imperiyaların tərkibində yaşamış, lakin sonda yenə də öz müstəqilliyimizi qazanaraq, tarixi həqiqəti bərqərar etmişik.

Tarix boyu yadelli işğalçıların hücumlarına məruz qaldıq. Ancaq düşmənlər əzmimizi qıra bilmədi, biz daha güclü olmağı, etdiyimiz səhvləri bir daha təkrarlamamağı öyrəndik. Təslim olmadıq, yağılara baş əymədik. Heç vaxt əsarət altında yaşamağı özümüzə layiq bilmədik. Mübarizliyimiz, dönməzliyimiz və qanımız bahasına da olsa azadlığımızı qazanmağa nail olduq.

***Torpaqlarımızda axıdılan şəhid qanları, adını tarixə yazdırmış igidlərimizin şücaətləri və qəhrəmanlıqları bunu deməyə əsas verir ki, uşaqdan böyüyə hər bir azərbaycanlı öz şərəfli tarixi ilə fəxr etməlidir. Mədəniyyəti dolğun, keçmişi zəngin olan bir millətin öyünməyə haqqı var.***

**gizir Ariz Aslanov**

*Şəhidlərimiz*

# Yenilməz döyüş ruhu, tükənməz Vətən sevgisi vardı...

1992-1994-cü illərdə respublikamızın ərazi bütövlüyü uğrunda ağır döyüşlərdən bizi uzun illər ayırır. Müharibənin vurduğu yaralar, gətirdiyi faciələrin ağrı-acısına bəzən zaman belə məlhəm ola bilmir. O dövrdə itirdiyimiz torpaqlarımız hələ də düşmən tapdağı altındadır. Böyük sayda vətəndaşımız məcburi köçkün həyatını yaşamağa məcburdur. Müharibədə əsir və itkin düşmüş minlərlə soydaşımızın taleyinə bu günədək aydınlıq gətirmək mümkün olmayıb. Xalqımız o döyüşlərdə qeyrətli, fədakar, cəsur oğullarını itirib, onların bir qisminin meyiti və məzarı işğal olunmuş ərazilərdə qalıb. Şəhidlərimizin ailələri üçün doğmasının, əzizinin ölümü ilə barışmaq, bu dərdə dözmək, toparlanıb həyata davam etmək çox çətin olub. Ötən illərdə neçə-neçə şəhidimizin valideyni, həyat yoldaşı və digər əzizi qəlbindəki iztirablara dözməyərək bu dünyadan vaxtsız köçüb.

Tarix boyu torpaq sevgisi, mənəviyyatı, mərdlik keyfiyyətləri, imanı və mərhəməti, müdrikliyi ilə ucalığa yüksələn xalqımız bütün bu sınaqlardan da ləyaqətlə keçəcək, itirdiyi yurdlarını yenidən öz nəfəsi ilə isindirəcək. Bu inam bizə mənəvi güc verir, döyüş ruhumuzu qüvvətləndirir.

Erməni işğalçılarına qarşı döyüşlərdə cəsurluq nümunələri göstərən, çiyinlərində daşıdıqları paqonların şərəfini son nəfəsinədək qoruyan ləyaqətli zabitlərimiz az olmayıb. Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının zabiti olmuş leytenant Xuduyev Vilayət Yunus oğlu şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızdan biridir. O, 1958-ci il sentyabrın 14-də Qazax şəhərində dünyaya göz açıb. Yunus Xuduyev və Sura Xuduyevanın qurduğu ailədə 6 uşaq anadan olaraq boya-başa çatıb. Vilayət ailənin sonbeşiyi idi. Xuduyevlər ailəsi (bəzi sənədlərdə Xudiyev, ailə başçısının adı Yunis yazılıb - Y.A.) Qazax rayonunda el-obanın dərin hörmətini qazanıb. Bu ailənin üzvlərinin dövlət qulluğunda və ictimaiyyət arasında gördüyü xeyirxah işlər həmişə təqdiredici nümunə olub. Y.Xuduyev II Dünya müharibəsində iştirak edib və yaralanıb. Vilayət müharibə veteranı olan atası ilə həmişə qürur duyub. Həyat belə gətirib ki, Vilayətin 14 yaşı olanda atası, 25 yaşı olanda isə anası dünyasını dəyişib. Bacısı Fəridə xanım va-



ŞƏHİD VİLAYƏT XUDUYEV

lideynlərin yoxluğunda ona hamıdan çox mənəvi dayaq olub, qardaşına sevgi və qayğısını əsirgəməyib.

V.Xuduyev Qazaxdakı Mehdi Hüseyn adına internat məktəbində 8 il təhsil alaraq, orada savadlı və çalışqan şagird kimi xarakterizə edilib. Sonrakı həyat yolu paytaxt Bakı ilə bağlıdır. 1974-1975-ci illərdə Bakıdakı xüsusi peşə məktəbində oxuyub, müvafiq sənəddə hesablayıcı peşəsini öyrəndiyi göstərilib. 1975-1979-cu illərdə isə Bakı Politexnik Texnikumunun Topoqrafiya fakültəsinin tələbəsi olub. Burada texnik-topoqraf ixtisasına yiyələnib. 1978-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Geologiya İdarəsinin hidroloji ekspedisiyasında praktika zamanı topo-geodeziya işlərini yerinə yetirib.

1979-cu ilin may ayında Nəsimi Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi Rayon İdarəsi - Y.A.) tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. SSRİ Silahlı Qüvvələrinin tərkibinə daxil olan müxtəlif hərbi hissələrdə hərbi xidmət keçib. Ukraynanın Xarkov şəhərində xüsusi təlim kursuna cəlb edilib. Sonra Odessa şəhərində keçən hərbi xidmət müddətində radiolokasiya üzrə operator, sürücü-elektromexanik, baş sürücü-elektromexanik vəzifələri ona həvalə olunub. Həmçinin, Vilayətə "yefreytor" hərbi rütbəsi verilib.

1981-ci ilin may ayında Vilayət hərbi xidmətdən tərxis olunaraq Vətənə qayıdıb. Onun əmək fəaliyyəti çoxşaxəli olub. Ayrı-ayrı müəssisə və idarələrdə işləyib. Avtomobil Nəqliyyatı Nazirliyinin Təmir-tikinti idarəsində, Xüsusi təmir-tikinti trestində, Dövlət Aqrosənaye Birliyində fəhlə, rəngsaz, usta, baş usta, mühəndis vəzifələrində çalışıb. İşlədiyi əmək kollektivlərində hörmət qazanıb, ictimai fəallardan biri olub, şəxsinə göstərilən etimadı doğruldub.

V.Xuduyevin ixtisası, müddətli həqiqi hərbi xidmətdə yiyələndiyi hərbi biliklər və keçdiyi xüsusi təlim kursları nəzərə alınaraq, o, Sovet dövründə ehtiyatdan hərbi təlim toplanışlarına çağırılıb. SSRİ müdafiə nazirinin 08.05.1985-ci il tarixli, 118 nömrəli əmri ilə Vilayətə "kiçik leytenant" ilk zabit rütbəsi verilib. Ehtiyatda olduğu dövrdə növbəti "leytenant" hərbi rütbəsinə də yüksəlib. Komandir və rəislər tərəfindən imzalanan xidməti xasiyyətnamələrdə onun mənəvi cəhətdən sabit şəxs olduğu, hərbçi ləyaqətini uca tutduğu, hərbi peşəkarlığı qeyd edilib. Ehtiyatdan çağırıldığı hərbi təlim toplanışlarında o, komandir bacarıqlarına yiyələnib, zabit üçün gərəkli olan təcrübə toplayıb.

1988-1991-ci illərdə Azərbaycanda geniş vüsət alan milli-azadlıq hərəkatı onun da dünyagörüşündə, ictimai baxışlarında, vətəndaşlıq mövqeyində köklü dəyişiklik yaradıb. Vilayət də milli müstəqilliyimizi xalqımızın üzləşdiyi faciələrdən xilas yolu kimi görürdü. 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycanın müstəqilliyə qovuşmasını Vilayət böyük ruh yüksəkliyi ilə qarşılayıb. Həmin dövrdə respublikamız Ermənistanla hərbi münaqişə vəziyyətində idi, Dağlıq Qarabağda erməni separatizmi daha da təhlükəli xarakter almışdı. 1992-ci ilin yanvarından başlayaraq isə düşmənin hərbi təcavüzü getdikcə şiddətlənirdi. Rayon və şəhərlərimizin işğal olunması, soydaşlarımızın öz torpağında məcburi köçkün vəziyyətinə düşməsi Vilayəti də hiddətləndirir, Vətənin müdafiəsində dayanmağı ehtiyatda olan zabit kimi özünün şərəfli borcu bilirdi. O, ön cəbhəyə könüllü getməyə can atırdı. Hərbi komissarlıqdan isə onun ehtiyatda olan zabit kimi səfərbərliklə çağırılmasını gözləməsi bildirilirdi.

1992-ci ilin sentyabr ayında V.Xuduyev ehtiyatda olan zabit kimi Daxili Qoşunların sıralarına hərbi xidmətə qəbul olunub. Ailəsinin verdiyi məlumata görə, o, həmin ilin avqust ayından hərbi xidmətə səfərbər edilib. Daxili Qoşunların Arxivindən verilən müvafiq arayışda V.Xuduyevin Xətai Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırıldığı qeyd edilsə də, SHXÇDX-nin Xətai Rayon İdarəsində müraciətimizə cavab olaraq, onun barəsində burada heç bir sənədin saxlanmadığı bildirilib. Araşdırma zamanı şəhid zabitin şəxsi işinin SHXÇDX-nin Nəsimi Rayon İdarəsində olduğu müəyyən edilib. Ancaq şəxsi işində Sovet dövrünə dair məlumatlar əksini tapıb. 1992-ci




ildə yenidən hərbi xidmətə çağırılması və döyüşlərdə iştirakı barədə qeydlər isə yoxdur. Daxili Qoşunların Arxivindən verilən arayışda o da göstərilib ki, leytenant V.Xuduyev 18 sentyabr - 2 oktyabr 1992-ci il tarixlərində Daxili Qoşunların Komandanının sərəncamında olub. Həmçinin, arayışda onun qoşunların 5477 saylı hərbi hissəsinin (hazırda 17072 saylı hərbi hissə) zabiti kimi 4 oktyabr 1992-ci ildə Ağdərədə şəhid olduğu yazılıb.

Ailəsindən verilən məlumatlara, habelə şəhid haqqında dərc edilmiş müəyyən mənbələrdəki informasiyalara istinad etməklə onun döyüş yoluna aydınlıq gətirməyə çalışdım. Həmin vaxt ön cəbhədə ağır döyüşlər gedirdi. Daxili Qoşunların ayrı-ayrı hərbi hissələrinin bir tərəfdən formalaşması həyata keçirilirdi, digər tərəfdən şəxsi heyət fasiləsiz olaraq döyüş bölgələrinə göndərilirdi. Leytenant V.Xuduyev öncə 5456 saylı hərbi hissəyə (hazırda 99713 saylı hərbi hissə) ezam edilib, bir müddət Bakı yaxınlığındakı hərbi poliqonda döyüş təlimlərinə cəlb olunub. Sonra bir qrup zabitlə Tərtər-Ağdərə döyüş zonasına göndərilib. Bu zabitlərin tabeliyinə verilən taqımlar Ağdərənin müxtəlif kəndləri istiqamətindəki döyüş mövqelərinin müdafiəsində dayanmışlar. Onun tabeliyindəki taqımın şəxsi heyəti 5477 saylı hərbi hissənin (hazırda 17072 saylı hərbi hissə) buraya ezam olunmuş hərbi qulluqçuları idi. Leytenant V.Xuduyevin komandiri olduğu şəxsi heyət Ağdərənin Drımbon (indiki Heyvalı), Kaçaqot (indiki Yayıcı), Çıldıran kəndləri və bir sıra ətraf yüksəkliklərin ərazisində döyüş tapşırıqlarını qətiyyətlə yerinə yetirərək, düşmənin xeyli hərbçisini məhv edib, onun bəzi atəş nöqtələrini susdurub, əlverişli mövqelərini ələ keçirərək, silah-sursatını qənimət götürüb. O, qanlı döyüşlərdən birində komandir kimi, tabeliyindəki şəxsi heyətin böyük bir hissəsini təhlükəli vəziyyətdən çıxarsa da, özü ağır yaralanaraq həlak olub. Son döyüşdə onun meyiti düşmənin nəzarətinə keçən ərazidə qalıb. Ermənilər Vilayətin meyiti üzərində vəhşilik törədiblər. Sonrakı döyüşlərdə onun meyiti tapılaraq döyüş bölgəsindən çıxarılıb və Bakıya gətirilərək Şəhidlər Xiyabanında dəfn olunub.

AZ-I 095418 nömrəli, 30.03.2004-cü il tarixli ölüm haqqında şəhadətnamədə leytenant V.Xuduyevin şəhid olduğu tarix 2 oktyabr 1992-ci il göstərilib (ölüm səbəbi: qarın nahiyəsi və sağ aşağı ətrafların qəlpə yaraları qeyd edilib, ailəsinə o vaxt verilən məlumata görə isə snayper gülləsi ilə vurulub – Y.A.). Həmin il oktyabrın 13-də isə şəhid torpağa tapşırılıb.

1995-ci ildə işıq üzü görən, Fəridə Ləmanın müəllifi olduğu "Qazax mahalının şəhidləri" kitabında şəhid zabitimiz haqqında məlumat verilib.

"Vətən həsrəti" qəzetinin 29.01.1993-cü il tarixli sayında Vilayətə həsr olunmuş "İntizarda qalan gözlər" başlıqlı məqalə dərc edilib.

Şəhid zabitimizin xatirəsinin əbədiləşdirilməsi yönündə tədbirlərin görülməsinə ehtiyac var. Vilayətin qardaşı və bacısı nəvəsi onun adını daşıyır. Silahdaşlarının, doğmalarının, bütün onu tanıyanların yaddaşında Vilayət yenilməz döyüş ruhu olan, ürəyi Vətən, millət sevgisi ilə döyünən zabit kimi qalacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 15.02.2019 15:19 Page 1



# 21 FEVRAL BEYNƏLXALQ ANA DİLİ GÜNÜDÜR

## Ana dilimiz milli özünüdərk mənbəyi və mənəvi sərvətimizdir

***Birləşmiş Millətlər Təşkilatının müvafiq qərarı ilə hər il fevralın 21-də dünya miqyasında Beynəlxalq Ana Dili Günü qeyd olunur. Bu günün qeyd olunması beynəlxalq ictimaiyyət tərəfindən mədəni müxtəlifliyin təzahürü olaraq milli dillərin qorunmasına böyük əhəmiyyət verildiyini göstərir.***




Tarixi inkişaf prosesində hər bir millətin varlığını, mənəvi yaddaşını, mədəniyyətini, adət-ənənələrini, ictimai təfəkkürünü və həmrəyliyini qoruyub saxlayan amillər arasında ana dili xüsusi yer tutur. Ana dilimiz milli özünüdərk baxımından mədəni-ictimai həyatımızda, öz köklərimizə bağlılığımızda böyük rol oynayır. Onu da qeyd etmək vacibdir ki, ana dilimiz milli-mənəvi dəyərlərimizi formalaşdıran və zənginləşdirən əsas qaynaqlardan biridir. Bu qaynaq olmadan milli şüurun və idrakın mövcudluğunu, habelə məzmunca yenilənməsini təsəvvür etmək çətindir. Bütün bu faktorlarla yanaşı, ana dilimiz bizim yazı irsimiz və nitqimizin vəhdətini əks etdirən həyat əhəmiyyətli mənbədir. Ona görə də ana dilimiz əvəzsiz mənəvi sərvətimizdir. Bizdən əvvəlki nəsillər bu mənəvi sərvətin sahibi kimi ona necə dayaq olublarsa, bugünkü nəsil də onların yolunu davam etdirməlidir.

Dünya tarixində elə dillər olub ki, bu gün nə onların daşıyıcıları qalıb, nə də hansısa izi və nişanəsi. Bizim ana dilimiz tarixi sınaqlardan uğurla keçə bilib, onun lüğət tərkibi daim yenilənib, ünsiyyət potensialı cəhətdən geriləməyib, dəyərli bədii nümunələrə həyat verib, çoxmilyonlu xalqın özünüifadə, özünütanıtım vasitəsinə, dövlətçilik atributuna çevrilib.

Ana dilimiz şifahi xalq yaradıcılığı ilə qırılmaz tellərlə bağlıdır. Xalqın söz xəzinəsi doğma dilimizin bünövrəsini təşkil edir. Dili qüdrətli edən onun söz ehtiyatıdır, həyat axarında öz ahəngini itirməməsidir, inkişafetmə qabiliyyətidir. Qədim zamanlardan bu günədək gəlib çatmış aşıq havalarımız ana dilimizin söz və musiqi vəhdətində necə zəngin ifadəetmə məziyyətlərinə malik olduğunu göstərir, milli ruhun əzəmətini aşılayır. Xüsusi qeyd etmək lazımdır ki, milli ruhun varlığı ana dilinə söykənir. Ana dilinin dayanıqlığı milli ruhun sarsılmazlığı deməkdir.

Azərbaycan dili türk dilləri ailəsinə aiddir. Türk dilləri arasında ana dilimiz Anadolu türk dilinə daha yaxındır. Bu gün ana dilimiz Türk dünyasında mədəni-insani əlaqələrin inkişafında özünəməxsus rol oynayır. Həmçinin, elmi-texnoloji tərəqqinin geniş vüsət aldığı hazırkı dövrdə türk dilləri sırasında ana dilimiz müasirləşmə potensialına görə də fərqlənir.

1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyəti dövründə ana dilimizin dövlət dili statusu bərpa olunub. Bu hadisə dövlətçilik təfəkkürümüzdə böyük rol oynayıb. Sonradan Azərbaycan öz müstəqilliyini itirsə də, Sovet İttifaqının tərkibində olduğumuz mərhələdə ana dilimizin rolu və mövqeyi, əhatə dairəsi, işləkliyi heç də zəifləməyib. Həmin illərdə ana dilimizə dair elmi tədqiqat işləri aparılıb, milli mətbuatımız, təhsilimiz, mədəniyyətimiz inkişaf edib, radio və televiziyamız formalaşıb, kinematoqrafiyamız təşəkkül tapıb, teatrlarımız püxtələşib. Bütün bu sahələrdə ana dilimizin istifadəsinin dərinləşməsi gerçəkləşib.

Milli Lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi hər iki tarixi dövrdə ana dilimizə böyük qayğı ilə yanaşıb, onun dövlət dili statusunun bərqərar olması və möhkəmlənməsini həyata keçirib. Dilçilik məsələlərinin dövlət həyatında düzgün tənzimlənməsi yönündə gördüyü mühüm işlərlə Milli Lider Heydər Əliyev cəmiyyətimiz üçün Vətən və millət təəssübkeşliyi örnəyi nümayiş etdirib. Respublikamızda Azərbaycan Dili və Əlifbası Gününün təsis edilməsi də onun adı ilə bağlıdır. Həmin gün bizə ana dilimizin müqəddəsliyini, milli birlik baxımından bu günümüz və gələcəyimiz üçün əhəmiyyətini aşılayır.

Respublika Prezidenti cənab İlham Əliyevin ana dilimizə diqqət və qayğı göstərməsi, onun inkişafı istiqamətində atdığı vacib addımlar ziyalılarımız və bütövlükdə ictimaiyyət tərəfindən dəstəklənir, rəğbətlə qarşılanır. Dövlət başçısının təşəbbüsü ilə dilçilik sahəsində bir sıra önəmli proqramlar və layihələr həyata keçirilib. Bu işlər hazırda da davam etdirilir. Dünyada az sayda ölkə tapmaq olar ki, orada dilçilik məsələlərinə bizdəki qədər dövlət dəstəyi olsun. Hazırda dünyada qloballaşma prosesi gedir və belə reallıqda ana dilimizin zərərli xarici təsirlərdən qorunmasına xüsusi diqqət yetirilir.

Hər bir vətəndaş yaşadığı ölkənin dövlət dilini bilməli və ona hörmətlə yanaşmalıdır. Ana dilimizin qayğısına qalmaq vətəndaşlıq borcumuzdur. Öz dilinə laqeyd yanaşanlarda vətənpərvərlik əqidəsi yaranmır.

Ana dilimizə ehtiram əqidəsinin aşılanması hərbi xidmətdə də mühüm rol oynayır. Hərbi qulluqçuların mənəvi tərbiyəsi işində ana dilimizin bədii-fəlsəfi mahiyyət daşıyan örnəklərindən məqsədyönlü istifadə olunması onların ruh yüksəkliyinə, əzmkarlığına, ideoloji cəhətdən yetkinləşməsinə müsbət zəmin yaradır. Müstəqilliyimiz gənclərə Azərbaycan dilində hərbi andiçmə, hərbi ənənələrə və hərbi təhsilə ana dilində yiyələnmə imkanı verməklə, tarixi köklərimizə qayıdışımızı təmin edib.

Çoxəsrlik yol keçərək öz həyatiliyini, tükənməzliyini, saflığını, təkamül potensialını isbat edən ana dilimiz özündə azərbaycançılıq məfkurəsini əks etdirməklə, bu təfəkkürü gələcək nəsillərə də ötürəcəkdir.

**Yalçın Abbasov**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2019/2020-Cİ TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.***

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə; qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

***İmtahanlar test üsulu ilə, 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.***

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

***Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək, Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.***

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2019-cu ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:***

***- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;***

***- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***

***- oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;***

***- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

***Ərizə və sənədlərin qəbulu 2019-cu il martın 1-dən aprelin 10-dək (bayram və bazar günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcək.***

***Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.***

*idman*

# AĞIRLIQ ÇƏKİ DAŞI QADIRMA VƏ ARMRESTLİNQ ÜZRƏ YARIŞ KEÇİRİLİB



Yanvar ayının 26-da 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda ağırlıq çəki daşı qaldırma üzrə yarış keçirilib. Yarışda Daxili Qoşunların Ali Hərbi Məktəbi, 99713, 67987, 25031, 16075 və 16076 saylı hərbi hissələrdən 6 komanda olmaqla 44 nəfər hərbi qulluqçu iştirak edib.

Şəxsi birincilik uğrunda yarışın nəticələri aşağıdakı kimi olub:

**Ağırlıq çəki daşı qaldırma üzrə:**

**65 kq. çəki dərəcəsində**

I yer - gizir Eldar Məmmədov (99713 saylı hərbi hissə);
II yer - gizir Nurani Mikayılov (67987 saylı hərbi hissə);
III yer - çavuş Cavid Babazadə (Ali Hərbi Məktəb).

**70 kq. çəki dərəcəsində**

I yer - gizir Akif Mürsəlov (67987 saylı hərbi hissə);
II yer - çavuş Ruslan Əmrahlı (16075 saylı hərbi hissə);
III yer - gizir Azər Muradov (99713 saylı hərbi hissə).

**75 kq. çəki dərəcəsində**

I yer – baş çavuş Elçin Dövlətov (99713 saylı hərbi hissə);
II yer - əsgər Əsgər Əhmədov (99713 saylı hərbi hissə)
III yer - kursant Orxan Qurbanlı (Ali Hərbi Məktəb).

**80 kq. çəki dərəcəsində**

I yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə);
II yer - çavuş Səid Məmmədov (16075 saylı hərbi hissə);
III yer - əsgər Razik Salmanov (25031 saylı hərbi hissə).

**85 kq. çəki dərəcəsində**

I yer - MAXE əsgər Ruslan Mürşüdov (99713 saylı hərbi hissə);
II yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə);
III yer - MAXE əsgər Elvin Eminov (67987 saylı hərbi hissə).

**90 kq. çəki dərəcəsində**

I yer - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
II yer - MAXE əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);
III yer - kursant Cəfərsadiq Ağazadə (Ali Hərbi Məktəb).

**+90 kq. çəki dərəcəsində**

I yer - MAXE əsgər Müşviq Hüseynov (16075 saylı hərbi hissə);
II yer - kiçik çavuş İsa İbrahimov (99713 saylı hərbi hissə);
III yer - gizir Fərhad Zaxrabəyov (67987 saylı hərbi hissə).

**Armrestlinq üzrə:**

**65 kq. çəki dərəcəsində**

I yer - gizir Elnur Vəliyev (99713 saylı hərbi hissə);
II yer - gizir Fərhad Mikayılov (67987 saylı hərbi hissə);
III yer - çavuş Cavad Babazadə (Ali Hərbi Məktəb).

**70 kq. çəki dərəcəsində**

I yer - kiçik çavuş Royal Abbaslı (99713 saylı hərbi hissə);
II yer – baş çavuş Akif Müslümov (67987 saylı hərbi hissə);
III yer - çavuş Orxan Muxtarov (16076 saylı hərbi hissə).

**75 kq. çəki dərəcəsində**

I yer - MAXE əsgər Nazil Cəfərov (16075 saylı hərbi hissə);
II yer - MAXE əsgər Xəyal Yaşılov (99713 saylı hərbi hissə);
III yer - əsgər Samir Hüseynzadə (16076 saylı hərbi hissə).

**80 kq. çəki dərəcəsində**

I yer - kiçik çavuş Ənvər Əmirli (99713 saylı hərbi hissə);
II yer - kiçik çavuş Təbriz Məmmədov (16075 saylı hərbi hissə);
III yer - kiçik çavuş Sənan Mirzəyev (16076 saylı hərbi hissə).

**85 kq. çəki dərəcəsində**

I yer - MAXE əsgər Ruslan Mürşüdov (99713 saylı hərbi hissə);
II yer - MAXE əsgər Elvin Eminov (67987 saylı hərbi hissə);
III yer - baş çavuş Elşən Novruzov (16075 saylı hərbi hissə).

**90 kq. çəki dərəcəsində**

I yer - MAXE əsgər Oruc Mustafayev (67987 saylı hərbi hissə);
II yer - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
III yer - kursant Cəfərsadiq Ağazadə (Ali Hərbi Məktəb).

**+90 kq. çəki dərəcəsində**

I yer - gizir Ruslan Kübərov (67987 saylı hərbi hissə);
II yer - gizir Fərhad Zaxrabəyov (67987 saylı hərbi hissə);
III yer - baş leytenant Emil Nadirov (16075 saylı hərbi hissə).

***Komanda birinciliyində 99713 saylı hərbi hissə kürsünün ən yüksək pilləsinə layiq görülüb. 67987 və 16075 saylı hərbi hissələr isə müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşdürüblər. Daxili Qoşunların birinciliyi uğrunda keçirilən yarışda yüksək nailiyyətlər əldə etmiş hərbi qulluqçular aidiyyəti hərbi hissə komandirləri tərəfindən mükafatlandırılıb.***

**Mətbuat xidməti**

# HƏRBİ XƏBƏRLƏR

**-YENİLİKLƏR-**

## "Pantsir SA" sistemləri bu il Rusiya silahlanmasına daxil ediləcək

"Pantsir-SA" sistemlərinin ilk arktik dəsti 2019-cu ildə hərbi birliklərə təhvil veriləcək. Ordu.az xəbər verir ki, bu barədə məlumatı Rusiya müdafiə nazirinin müavini Aleksey Krivoruçko "Şeglovski Val" silahqayırma müəssisəsində "Pantsir-S" raket və silah sistemlərinin seriyalı istehsalı ilə bağlı işlərin gedişilə tanış olarkən açıqlayıb.



O, həmçinin, "Berejok" və "Baxça-U" piyadaların döyüş maşınının və aviasiya hücum vasitələrinin, "Kornet" və "Arkan" tank əleyhinə raketlərin, eləcə də 30 mm avtomatik topların və kiçik silahların istehsalı ilə də tanış olub.

## "Avon" ABŞ HHQ-ni M-69 maskaları ilə təmin edəcək

"Avon" şirkəti ABŞ HHQ strateji təyyarələrinin hərbi heyətini M-69 maskaları ilə təmin etmək üçün sifariş alıb. Ordu.az xarici KİV-lərə istinadən xəbər verir ki, bu barədə Pentaqon rəsmiləri məlumat verib.



92,7 milyon dollar dəyərindəki müqavilənin 7 il qüvvədə qalacağı bildirilib.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Komandanlığı gizir Nizami Nuriyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**TƏSİSÇİ:**
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**